# «Fəxri Turizm İşçisi» döş nişanı ilə təltif olunub



“27 Sentyabr—Ümumdünya Turizm Günü” münasibətilə Bakıda keçirilən tədbirdə həmyerlimiz, Qəbələ—“Xanlar” İstirahət Mərkəzi restoranlar şəbəkəsinin təsisçisi və rəhbəri Xanlar Kərimov Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mükafatlandırılıb.

Nazirliyin “Fəxri Turizm İşçisi” döş nişanı ilə təltif olunmuş Xanlar Kərimov bu mükafata ölkədə turizmin inkişafındakı xidmətlərinə, əldə etdiyi uğurlara görə layiq görülüb.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev çıxışında Xanlar Kərimovun turizmin inkişafı sahəsində göstərdiyi xidmətlərdən ətraflı bəhs etmiş, bu sektorun dünya trurizm arenasına çıxmasına verdiyi töhfələrdən danışmışdır.

Qeyd edək ki, “Fəxri Turizm İşçisi” döş nişanı Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsis olunmuşdur.

**“Qəbələ”**

# Qəbələyə 218 min turist gəlib

Payız fəslinin başlanması və havaların soyuması ilə bəzi bölgələrdə yay turizm mövsümü başa çatıb. Hazırda Qəbələ rayonunda soyuq və yağışlı günlər olmasına baxmayaraq, yerli və xarici turistlərin bu bölgəyə axını davam edir.

Qəbələdə son illər qurulan müasir turizm infrastrukturu ilin bütün fəsillərində turistlərə yüksək səviyyədə xidmət göstərmək üçün əlverişlidir. İsti yay günlərinin başa çatmasına baxmayaraq, istirahət etmək üçün Qəbələyə üz tutan yerli və xarici turistlərin sayında azalma müşahidə edilmir. Belə ki, Qəbələyə iyunda 19 min 245, iyulda 45 min 463, avqustda 39 min 191, sentyabrda 37 min 637 turist gəlib. İlin əvvəlindən bəri isə Qəbələ 218 min 118 turist qəbul edib. Bunun 89 min 217 nəfəri yerli, 128 min 901 nəfəri əcnəbi turistlərdir. Ümumilikdə, ilin sonunadək Qəbələyə 260 mindən çox turistin gələcəyi gözlənilir. Turistlərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, İraq, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirliyi, Gürcüstan, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, Pakistan və Misirdəndir.

Qeyd edək ki, rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən 20-si beş, dörd və üçulduzlu otellər, müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 3500 qonağı qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

**“Qəbələ”**

# Müsabiqənin qalibləri Qəbələyə gəlmişlər

***Gənclər və İdman Nazirliyinin layihəsi ilə İslam ölkələrinin gəncləri arasında keçirilən “Mən Azərbaycan haqqında nə bilirəm” adlı yazı müsabiqəsinin qalibləri Azərbaycanda səfərdə olmuşlar.***

Özbəkistanda keçirilmiş “Mən Azərbaycan haqqında nə bilirəm” müsabiqəsində ölkənin Daşkənd və Səmərqənd şəhərindən 5 gənc- Səmərqənd Dövlət Universiteti Gənclər Təşkilatının sədri Khusen Tukhtaev, Daşkənd Kimya Texnologiyaları Universitetinin tələbəsi İbrokhim Kosimkujaev, Mirzə Uluqbek adına Özbəkistan Milli Universitetinin tələbəsi Tatyana Abbasova, Səmərqənd Dövlət Universitetinin məzunu Yusif Cəfərov, Daşkənd şəhər Humanitar kollecinin tələbəsi Sitara İslomova ölkəmizin tarixi, dövlətçiliyi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, milli mədəniyyətimiz, Azərbaycanın beynəlxalq aləmdə rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin son illər əldə etdiyi nailiyyətlər, neft və qaz strategiyası, Azərbaycan qədim mənbələrdə və s. mövzuların özündə əks etdirən məqalələr yazaraq AMM-nə təqdim edib və müsabiqənin qalibi olublar.



Gənclər sentyabrın 15-dən 22-dək Bakı şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, “İçərişəhər” Dövlət Tarix Qoruğunda, Atəşgah məbədində, dünyada ən qədim insan yaşayış məskənlərindən olan Qobustan Dövlət Qoruğunda, Qala Etnoqrafiya Muzeyində, Azərbaycan Dövlət Tarix Muzeyində olublar. Sentyabrın 22-də qonaqlar Qəbələ rayonuna gələrək, buranın tarixi və turizm məkanlarını gəziblər.

**“Qəbələ”**

# Tədbir keçirilmişdir

***Qəbələ Dövlət Tarix Bədii Qoruğunda 27 sentyabr Beynəlxalq Turizm Günü münasibətilə “Turizmin inkişafında qoruqların rolu” mövzusunda tədbir keçirilib. Həmin gün qoruq ərazisində açıq qapı elan edilib və qoruğa 55 nəfər turist gəlib. Onların 15 nəfəri xarici ölkələrin vətəndaşları, 40 nəfəri isə yerli turistlər olub.***

Tədbirdə rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin məsləhətçisi Azər Şirinov, Qəbələ Turizm İnformasiya Mərkəzinin əməkdaşları, rayon turizm və otelçilik üzrə peşə tədris mərkəzinin bir qrup müəllim və şagirdi, rayon qızılbalıqyetişdirmə zavodunun işçiləri, tarix-diyarşünaslıq muzeyinin nümayəndələri, AMEA-nın Arxeologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli və qoruğun kollektivi iştirak edib.

Tədbiri giriş sözü ilə açan qoruğun direktoru Bəhruz Şərifov iştirakçılara “Turizmin inkişafında qoruqların rolu” mövzusunda mühazirə oxuyub.

Sonra Azər Şirinov çıxış edərək qonaqları rayon icra hakimiyyəti adından salamlayıb və tədbir iştirakçılarına uğurlar arzulayıb.

AMEA-nın Arxeologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli çıxış edərək Qafqaz Albaniyasının tarixi və günümüzə gəlib çatan maddi mədəniyyət nümunələri haqqında geniş məlumat verib.

Turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktor müavini Reyhan Məmmədova çıxışında turizm sahəsinə gənc kadrların hazırlanması istiqamətində təhsil müəssisəsində görülən işlərdən bəhs edib.

Çıxışda qeyd olunub ki, qoruqda və rayonun digər turizm müəssisələrində çalışan kadrların əksəriyyəti məhz həmin tədris mərkəzinin məzunlarıdır.

Rayon tarix-diyarşünaslıq muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi Xalis Məmmədov tədbir iştirakçılarına qoruğun keçmişi, yaranma zərurəti haqqında danışıb.

Turizm informasiya mərkəzinin direktoru Anar Məhərrəmov, mərkəzin böyük mütəxəssisi Rüxsarə Soltanova, qoruğun elmi işçisi Mirazim Səmədov çıxışlarında turizm işi və onun əhəmiyyətindən, son illər Qəbələdə turizmin inkişafı, bölgənin turizm mərkəzinə çevrilməsi istiqamətində əldə edilən uğurlardan danışıblar.

Qeyd olunub ki, 2016-cı il ərzində Qəbələ rayonunu 170 min turist ziyarət edibsə, 2017-ci ilin 8 ayı ərzində onların sayı 180 min olub. O cümlədən qoruq ərazisinə gələn turistlərin sayında da artım müşahidə olu-



nub. 2016-cı ildə qoruğa 4932 nəfər gəlibsə, 2017-ci ilin 9 ayı ərzində bu rəqəm 6106 nəfər olub.

Tədbirdə Qəbələ rayonunun turizm infrastrukturu və aparılan arxeologiya işlərinə dair videoçarx nümayiş etdirilib. Eləcə də qoruqla əməkdaşlıq edən idarə, müəssisə və təşkilatların, qoruda çalışanların bir qrupuna hədiyyələr, fəxri fərmanlar təqdim olunub.

Sonda xatirə şəkilləri çəkilib.

**Mirazim SƏMƏDOV,**
**qoruğun elmi işçisi.**
**Foto İlkin Vəlizadənindir.**

# İlk beşlikdə

***TurStat analitik agentliyi “National Geographic Traveler Awards 2017” mükafatına internet-səsvermənin ilkin yekunlarını təhlil edib.***

AZƏRTAC TurStat agentliyinin saytına istinadla xəbər verir ki, Azərbaycan bu mükafatın “Sağlamlaşdırıcı istirahət” nominasiyasında ilk beşliyə daxildir. İsrailin liderlik etdiyi bu beşlikdə Almaniya, Sloveniya və İsveçrə də var.



Qəbələdəki “Chenot Palace” oteli “Ən yaxşı kurort oteli” nominasiyasında ilk beşliyə daxildir. Çimərlik istirahəti üçün Yunanıstan, ailəvi istirahət üçün Kipr, ekskursiya turizmi üçün İtaliya, dağ xizəkçiliyi üçün Avstriya, macəra turizmi üçün Argentina, ekzotik turizm üçün Yaponiya, qastronomik və aqrar turizm üçün Gürcüstan liderlik edir. Çin isə “ilin kəşfi” sayılır.